SARU BRAYERLİ

Larri Batrouzla birlikdə qələmə alınıb

Evə aparan uzun yol

İngiliscədən tərcümə:
Nərmin İsgəndər

qanun nəşriyyatı

SAROO BRIERLEY

with Larry Buttrose

A Long Way Home

Bu kitab insan həyatının təsadüflərlə dolu kiçik hadisələr fonunda tamamilə necə dəyişdiyini göstərən real bir hekayədən bəhs edir. Vətənindən, ailəsindən, doğmalarından təsadüfən ayrı düşən beşyaşlı uşağın qəlbində gizli qalan xatirələrinin illər sonra necə gücə çevrildiyini, öz köklərini tapmaq istəyinin kilometrləri necə aşdığını bu hekayədə görəcəksiniz. Yaşa dolduqca Sarunun yaddaşının dumanlı künclərində gizlənmiş şəkillər, bir küçənin səsi, bir evin kölgəsi, bir hissin qoxusu, sanki özünə səsləyir və bir gün o nə olduğunu özü də bilmədən bu çağırışa tərəf gedərək mümkünsüz görünən axtarışa başlayacaq. Bəşər övladının daxilindəki görünməz bağların nə qədər möhkəm ola bildiyini xatırladan, oxucunu ilk səhifəsindən özünə çəkən, səmimi və təsirli bir xatirə romanının mahiyyəti isə sadə və dərin bir sualda gizlidir: *"Ev haradır?"*

Qudduya ithaf edilir

MÜNDƏRİCAT

Ön söz 9
1. Xatırlama 13
2. İtkin düşmək 21
3. Sağ qalmaq 48
4. Qurtuluş 62
5. Yeni həyat 81
6. Anamın səyahəti 95
7. Böyümək 106
8. Axtarış 121
9. Evi tapmaq 134
10. Anamla görüşüm 151
11. İkinci görüş 170
12. Əlaqə yaratmaq 183
13. Qayıdış 196
Son söz 224
Təşəkkürnamə 230

Ön söz

Çıxıb getmişdilər.

Düz 25 il bu günü düşünmüşəm. Yeni adım, yeni ailəmlə dünyanın o biri başında doğma anam, qardaşlarım və bacımı bir də nə vaxtsa görə biləcəyəmi fikirləşərək böyümüşəm. Bu gün isə burada – Hindistanın mərkəzindəki, uşaqlığımın keçdiyi tozlu qəsəbənin yoxsul məhəlləsindəki dağılmış binanın tinində dayanmışam. Bomboş binadır.

Sonuncu dəfə burada olanda beş yaşım vardı.

Rəzələri qırılmış qapı uşaqkən xatırladığımdan xeyli kiçik idi; indi içəri keçmək üçün əyilməli olacaqdım. Qapını döyməyin də bir mənası yoxdur. Pəncərəsiylə kərpic divarındakı ovulmuş tanış boşluqdan ailəmin yaşadığı, məndən bir az hündür tavanlı dar otağı görə bilirəm.

Bugünədək gizlətməyə çalışdığım ən böyük qorxum illərlə apardığım axtarışdan sonra tapdığım evimdə ailəmin olmaması idi.

İlk dəfə deyil ki, çaşıb-qalır və nə edəcəyimi bilmirəm. Otuzu haqladığıma, cibimdə pulumun və qayıtmağa evimin olmasına baxmayaraq, yenə də illər əvvəl qatar stan-

siyasındakı hissləri keçirirəm. Nəfəsim daralır, fikirlərim qarmaqarışıqdır. Kaş ki keçmişi dəyişdirə biləydim.

Elə bu vaxt qonşunun qapısı açılır. Bir az daha yaxşı vəziyyətdə olan yandakı evin kandarında qırmızı xalatlı, qucağında uşaq olan cavan bir qadın görünür. Hiss olunur ki, maraq onu boğur. Hindliyə oxşasam da, qəttəzə qərbli geyimim və saç düzümümə görə buralara yadam, əcnəbiyəm. Betəri də odur ki, heç mən onun dilini bilmirəm. Qırımından belə anlayıram ki, buralarda nə axtardığımı soruşur. Hindcə, demək olar ki, cüzi xatırlayıram, bildiyim tək-tük sözün də tələffüzü yadımdan çıxıb. Hindcə yox, ingiliscə bildiyimi deyəndə qadının "ingiliscə bir az bilirəm" cavabı məni heyrətləndirir. Sahibsiz otağa işarə edərək vaxtilə orada yaşayanların adlarını sadalayıram:

– Kamla, Quddu, Kallu, Şekila, – sonra isə özümü göstərirəm, – Saru.

Qadını qarşımda lal-dinməz görəndə elə bu cür hallar üçün anamın Avstraliyada mənə verdiyi şeylər yadıma düşür. Çantamdan uşaqlıq şəkillərimin olduğu bir kağız çıxarıram. Yenidən özümü göstərib:

– Balacalığımdır, – deyib, şəkildəki oğlan uşağına işarə edirəm, – Saru.

Sonra burada yaşayarkən qapı qonşumuzun kim olduğunu xatırlamağa çalışıram. Görəsən, o vaxt qonşuluğumuzda indilərdə bu yaşda olacaq bir qız uşağı vardımı? Qadın əvvəlcə şəkillərə, sonra da mənə diqqətlə baxır. Dediklərimi başa düşdüyündən əmin deyiləm. Çəkinə-çəkinə ingiliscə sözə başlayır:

– Bu insanlar... bu gün... yox burada yaşamaq...